**UOT: 1 (091)** **(səh. 100-111)**

# DİN VƏ ƏXLAQ MÜNASİBƏTLƏRİNDƏKİ NƏZƏRİYYƏLƏR

**Ələddin Məlikov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-830-6764

**Xülasə.** Tarixən bir sıra müzakirələrə səbəb olan "Din və əxlaq" münasibətləri günümüzdə daha çox aktuallıq qazanıb. Xüsusən də bu problem Qərbdə hərtərəfli tədqiqat mövzusuna çevirilmişdir. Bəzi tədqiqatçılar din və əxlaqı bir-birindən fərqli anlayışlar hesab etmiş, bəziləri bunun əksini iddia etmiş, digərləri ortaq bir yol seçməyə çalışmış, başqa araşdırmaçılar isə bu anlayışların tarix boyu bir-biriləri ilə ayrılmaz şəkildə bağlı olduğunu vurğulamışlar. Mövzunun daha dərindən mənimsənilməsi və anlaşılan olması üçün ilk olaraq "din" və "əxlaq" sözlərinin mənşəyini bilmək lazımdır. Buna görə də ilk növbədə bu iki ifadənin lüğəti və terminoloji mənaları tədqiq etmək, daha sonra isə mövzu ilə əlaqədar müxtəlif aspektli fikirləri araşdırılmaq və şərh etmək daha məqsədə uyğundur. Məqalədə "din" və "əxlaq" sözlərinin tərifləri verilmiş, daha sonra isə fəlsəfə tarixinə nəzər salınaraq mövzuya dair problem və suallar, eləcə də müxtəlif nəzəriyyələr araşdırılmışdır. Mövzunun aktuallığı və əhəmiyyətinə xüsusi diqqət yetirilən araşdırmada fərqli yanaşmaların təqdim edilməsi tədqiqatın maraqlı nəticə ilə yekunlaşmasına səbəb olmuşdur.
**Açar sözlər:** din, əxlaq, din və əxlaq münasibətləri, Sokrat, İmmanuel Kant, Soren Kyerkeqor, Karl Marks, Robert Adams

# THEORIES IN THE RELATIONSHIP BETWEEN RELIGION AND MORALITY

**Aladdin Malikov**
PhD, assos.prof.,
at the Institute of Philosophy and Sociologyof the ANAS
E-mail: aladdin.malikov@mail.ru
https://orcid.org/0000-0001-830-6764

**Abstract**. Historically, "Religion and ethics" relationships, which caused a number of discussions, have become more relevant today. In particular, this problem has become the subject of comprehensive research in the West. Some researchers considered religion and morality to be different concepts, but others claimed the opposite. Some tried to choose a common path, and other researchers emphasized that these concepts are inseparably connected throughout history. In order to understand the topic more deeply, it is necessary to know the origin of the words "religion" and " ethics". Therefore, first of all, it is more appropriate to study the dictionary and terminological meanings of these two expressions and then examine and interpret various aspects of the topic. Definitions of the words "religion" and " ethics" are given in the article, and then problems and questions on the subject, as well as various theories, are examined by looking at the history of philosophy. The presentation of different approaches in the study, which paid special attention to the relevance and importance of the topic, led to the conclusion of the study with an interesting result.
**Keywords:** religion, ethics, religion and ethics relations, Socrates, Immanuel Kant, Soren Kierkegaard, Karl Marx, Robert Adams.

# ТЕОРИИ ВЗАИМООТНОШЕНИЙ МЕЖДУ РЕЛИГИЕЙ И МОРАЛЬЮ

**Аладдин Маликов**
PhD, доцент ,ведущий научный сотрудник
Института Философии и Социологии НАНА
E-mail: aladdin.malikov@mail.ru
https://orcid.org/0000-0001-830-6764

**Резюме.** Тема «религия и мораль», исторически являвшаяся предметом различных дискуссий, актуальна и сегодня. В частности, на Западе эта проблема широко изучается. Так, некоторые ученые утверждали, что религия и мораль отличаются друг от друга, тем самым, пытаясь найти общий способ решения этой проблемы, другие доказывали обратное, подчеркивая, что эти концепции были неразрывно связаны на протяжении всей истории.
Для более глубокого погружения в этот предмет, в начале нужно изучить происхождение слов «религия» и «мораль».
Поэтому целесообразно изучение лексико-терминологического значения этих выражений, а затем выявить и рассмотреть различные аспекты этой проблемы.
В статье раскрывается суть понятий «религия» и «мораль», выявляются проблемы и вопросы по истории философии. При рассмотрении теорий изучаемого предмета было предложено несколько подходов, способствовавших более интересным результатам и выводам.
**Ключевые слова:** религия, мораль, религиозные и моральные отношения, Сократ, Иммануил Кант, Серен Кьеркегор, Карл Маркс, Роберт Адамс

## Giriş

Din və əxlaq mövzusunun düzgün araşdırılması və doğru qərar çıxarılması üçün bu iki termini ayrıca izah emək lazımdır. Əxlaq ərəb sözüdür. Bu ifadə ərəb dilində "xülq" sözünün cəm formasıdır. Lüğətdə elə bir daxili xarakter və xüsusiyyətə deyilir ki, insan onunla fikirləşmədən bəzi davranışları həyata keçirir. Əxlaqın terminoloji tərifində deyilir ki, ictimai şüur formalarından biri olaraq sosial həyatın bütün sahələrində insanların davranışını tənzimləmək funksiyasını yerinə yetirən sosial dəyərlər toplusudur. Bu səbəbdən əxlaq iki növə bölünür: yaxşı əxlaq və pis əxlaq. İngilis dilində "ethics" ifadəsi burada istifadə edilən əxlaq mənasını ehtiva edir. Qərb fəlsəfəsi tarixində etikanın fəlsəfədə xüsusi bölmə kimi verildiyini müşahidə edirik. Aristotelin "Nikomaxus əxlaqı", B.Spinozanın "Etika" əsəri qeyd edilənləri təsdiqləyir.

Din və əxlaq mövzusunun qarşılıqlı əlaqələrini araşdırmaq, onların hər birinin müstəqil və obyektiv izahını vermək və onlar arasında münasibəti müəyyənləşdirmək "din və əxlaq" mövzusunun əsas predmetidir. Burada əsas suallar aşağıdakılardan ibarətdir: Din və əxlaq müstəqil həqiqətlərdirmi? Onların bir-birindən asılı olduğu müəyyənləşərsə, hansı biri üstün təsir gücünə malikdir? Dindən təcrid edilmiş etik dəyərlər hansı meyarlara əsaslanır? Sekulyar əxlaqın dini əxlaqla vəhdət təşkil edən normaları varmı? Din və əxlaq müstəqil həqiqət hesab edilərsə, onların müddəaları arasında ziddiyyət olacaqmı?

Din fəlsəfəsində müzakirə olunan əxlaq deskriptiv yox, normativ əxlaqdır. Bu səbəbdən mövzunun tarixi aspektlərini diqqət mərkəzində saxlayarkən onların təhlili əsas götürülür. Bir sıra insanlar əxlaqa həyatın bütün sahələrini əhatə edən dəyərlər toplusu kimi inanmırlar. Bir çox insanlar isə məhz bu aspektdən əxlaqın roluna inanırlar. Lakin burada əsas sorğu bundan ibarətdir ki, etik qanunların mənşəyi nədir? Doğru hesab edilən əxlaqi qanunların son məqsədi nədir? Etikada təsbit olunan davranış qanunları yalnız rasional düşüncənin məhsuludurmu? Yoxsa bu normaları Allah müəyyənləşdirir? Bəlkə, onların başqa amilləri var? Yaxud əxlaq dindən tam olaraq

ayrıdır? Müxtəlif fəlsəfi məktəblərdə problemin həlli üçün müxtəlif yollar göstərilmişdir.

Dinin özü insanlara əxlaqi bir yaşayış forması təqdim edərək onların əxlaqi baxımdan inkişafını təmin edir. Din daim əxlaqi yaşayışı tövsiyə edir. Buna görə, dini, insanları səadətə çatmaq üçün həyatlarına əks etdirdikləri əxlaqi dəyərin bütünü olaraq tərif etmək mümkündür. Bu tərifdən yola çıxaraq inanc yönündən ən ərdəmli, ən üstün olanın, əxlaqca ən üstün olanın olduğu nəticəsi ortaya çıxa bilər. Din insanın Allaha iman bağlamında özünü başqalarına və hətta digər varlıqlara qarşı vəzifələrini bildirərək ona dəyər yükləyir. İnsanlara hansı ideallara yönəlmələri, necə davranmaları, necə bir xarakter yaratmaları zərurətini bildirir. Dinin istədiyi yaşam tərzi əxlaqlı bir yaşam tərzidir. İnsanlar arasındakı münasibətləri düzəldən bu qanunlar toplusu olaraq dinin ortaya qoyduğu əxlaq insanın xoşbəxtliyini hədəf alır. Çünki, İlahi çağırışın məqsədi gözəl əxlaqa sahib olan xoşbəxt insandır. İnsanların xoşbəxt olmaları bu çağırışa əməl etməklə mümkündür. Dində ən yüksək dəyər qaynağı Allahdır. Dolayısı ilə dini cəhətdən əxlaqlı ola bilmək ancaq dini hökmlərə əməl ilə mümkündür.

Məqalənin əsas predmeti din fəlsəfəsinin əsas mövzularından olan "din və əxlaq" münasibətlərini ətraflı araşdırmaq və müxtəlif aspektlərdən mövzunu ələ almaqdır. Burada əsasən Qərb fəlsəfi fikrinin mövzuya münasibəti haqqında araşdırmalar aparılmışdır. Qərb dünyasında Sokratın, İmmanuel Kantın və Karl Marksın, Soren Kyerkeqorın, Robert Adamsın nəzəriyyələri izah olunur. Mövzuya dair müxtəlif suallar, eyni zamanda həmin sualların cavabları da məqalədə öz əksini tapmışdır.

Burada əsas məqsəd təməl nəzəriyyələri anlamaq üçün din və əxlaq münasibətlərini dərindən araşdırmaq və mövzuya digər aspektlərdən də baxmaqdır. Daha sonra isə əsas mövzu olan nəzəriyyələr açıqlanmışdır ki, bunlar da din və əxlaq mövzusunun demək olar ki, təməlində duran məsələlərdir.

Din müəyyən şeylərə inam və bağlılığı və onlara uyğun olan şüurlu seçimləri və təcrübələri ehtiva edir. Bu mənada hər bir din öz dindarlarına müəyyən həyat tərzi təklif edir. Din insanın varlığının məqsədidir; həyatın əsl mənası nədir suallarına cavab axtarır. Bergerin sözləri ilə desək: *"Həyata məna və məqsəd verən din strateji rol oynayır. Din bütün kainatı insan üçün mənalı bir varlıq kimi qavramaq üçün cəsarətli bir cəhddir"*. Bu qısa izahlardan da anlaşıldığı kimi, din fəlsəfə, əxlaq və siyasətlə, xüsusən də ictimai və məqsədyönlü cəhətləri ilə kəsişir. Din və əxlaq arasında paralelliyin və ya münasibətin nə demək olduğunu əxlaqın nə olduğunu açıqladıqdan sonra təhlil etməyə çalışacağıq.

Tədqiqat üzərində işləyən zaman müxtəlif mənbələrindən geniş istifadə edilmişdir. PDF formasında olan elektron kitablara üstünlük verilmişdir. Daha çox elektron vəsaitlər işin ərsəyə gəlməsində mühüm rol oynamışdır. Bunlarla yanaşı istər elektron vəsaitlər, istərsə də əldə olan kitablar hər biri diqqətlə gözdən keçirilmiş, təhlil edilərək nəticə çıxarılmışdır. Xarici mənbələr dəqiq şəkildə tərcümə edilmiş və Azərbaycan dilində qeydə alınmışdır.

## "Din" və "əxlaq" sözlərinin lüğəti və terminoloji mənaları

Qeyd etməliyik ki, problemin düzgün araşdırılması və düzgün qərar çıxarılması "din" və "əxlaq" sözlərinin ayrı-ayrılıqda yetərli izahından asılıdır. Bu səbəbdən də ilk öncə din və əxlaq anlayışlarının hansı məna ifadə etdiyi müəyyənləşdirəcək, sonra həmin əsasla məsələlərin həllinə çalışacağıq.

## "Din" sözünün lüğəvi və terminoloji mənası

Dilçilər din sözünün ərəb dilində "üç köklü" ismi məsdər olmasını bildirirlər. Cövhəri bir termin olaraq dinin "adət, məqam, cəza, mükafat, itaət" mənada istifadə edildiyini göstərir. Rağib əl-İsfahani yalnız "itaət" və "cəza" (qarşılıqlı) mənalarını qeyd etmişdir. İbn Mənsur bunlara "hesab" və "islam"ı da əlavə etmiş, həmçinin ismi məsdər olduğunu, dinin isə isim olduğu fikrini ifadə etmişdir. Zəbidi ərəb poeziyasından götürülmüş müxtəlif nümunələrə, eləcə də ayə və hədislərə əsaslanaraq din sözünün iyirmidən çox mənasını və bir termin kimi iki fərqli mənasını qeyd etmişdir. Tərcüməçi Asım Əfəndi isə dinin otuzdan çox mənasından bəhs etmişdir. Bunlardan dinin məna-

sı ilə yaxından əlaqəli olanlar bunlardır: Cəza və mükafat, İslam, adət və ənənə, haqq-hesab, hökmranlıq və qələbə, sultanlıq və mülk, hökm və fərman, məqbul ibadət, millət, şəriət, itaət.

Şərqşünas Makdonald klassik ərəb lüğətlərində sadalanan mənalara görə üç fərqli din sözün seçilə biləcəyini bildirir:

A) Arami-ibrani dilindən "qayda" mənasını verən söz;

B) Xalis ərəbcə olan və "adət" mənasını verən və birincisi ilə sıx əlaqəsi olan söz;

C) "Din" mənasını verən və farscadan (daenə) gələn söz.

Nöldeke və Vollers kimi bəzi şərqşünaslar ərəb dilindəki dinin üçüncü variantda göstərilən pəhləvi mənşəli sözündən gəldiyini iddia edərkən, M.Gaudefroy-Demombynes bu sözün necə "din" kimi tərif edildiyini bilmir. Həmin müəllif Makdonald kimi dini ərəbcə deyn (borc, öhdəlik) sözünün dəyişdirilmiş forması kimi düşündüyünü bildirir. Qardetə görə din sözü fars mənşəli deyil, çünki İranın köhnə dini Məzdəkizmlə İslam arasında din baxımından heç bir yaxınlıq yoxdur. İnanılanın əksinə olaraq dinin İbrani-Arami dilindəki mənaları ilə ərəb mənşəli mənası arasında çox da fərq yoxdur. Semantika baxımından "müəyyən vaxtda ödəniləcək borc" mənasını verən deyn "adət" müqabilində tədricən din şəklini almış və sonralar "Allahın hökmü" mənasını qazanmışdır.

Quranda din sözü 92 yerdə işlənmişdir. Üç ayədə də (ət- Tövbe 9/29, əs- Səffat 37/53, əl-Vaqia 56/86) fərqli mənaları yer alıb. Bu ayələrdə dinin bu mənalarda- idarə etmək, idarə edilmək, itaət, hökm, tövhid, İslam, şəriət, adət, cəza, hesab, millət kimi istifadə olunduğu görülür.[52]

Latınca "religio"/"religion", sanskritcə "dharma", palicə "dhamma", çincə "chung chiao", yaponca "şinto" kimi fərqli mədəniyyətlərdə müxtəlif sözlərlə ifadə olunan "din" Qurani-Kərimdə yaradan və yaradılmış araındakı münasibətləri tənzimləyən qanun, nizam və yol üçün istifadə olunmuşdur. Dinlər tarixində dinə Tanrı məfhumu, ruhi təcrübə, metafizik varlıqla münasibət, ibadət və inanc kimi müxtəlif faktorların önə çıxarıldığı çoxsaylı təriflər verilmişdir. Bu təriflərdə üzərində dayanılan ortaq cəhətlərə görə, din insanın Tanrı, metafizik aləm və yaxud müqəddəsə dair hiss, düşüncə və davranışlarının toplusudur.

Sosiologiya elmində dinin mahiyyətinə dair nəzəriyyələr din fenomenini, əsasən, iki baxımdan- din strukturunun əsas elementləri və dinin cəmiyyətdəki rolu və funksiyası əsasında izah etməyə çalışır. Dinin strukturu üç formada təzahür edir:

1) fövqəltəbii varlığa inam;

2) dini fəaliyyət;

3) dini təşkilatlar.

Başqa sözlə, din fövqəltəbii qüvvələr və ya varlığa etiqad etmək, bu fövqəltəbii varlığa sitayiş etməkdən ibarət olan ayinləri yerinə yetirmək, dini məra sim lərdə iştirak etmək, nəhayət, dini birliklər və dini qruplar meydana gətirməklə özünü ifadə edir. Dinin mahiyyətinə dair sosioloji təriflərin bəzi nümunələrini nəzərdən keçirək. İngilis antropoloqu E.B.Teylor (1832-1917) dinin mahiyyətini "ruhani varlıqlara inanmaq" kimi xarakterizə etmişdir. Burada "ruhani varlıqlar" ifadəsi insanların idrakının fövqündə duran, fövqəltəbii güclərə malik olan ruhani varlıqlar (tanrı, mələk və s.) kimi başa düşülür. İngilis antropoloqu Ru-Dolf Otto (1869-1937) dini "müqəddəs (sacred) olanın təcrübə edilməsi" şəklində xarakterizə edir. Ona görə, din insanın müqəddəs qəbul edilən varlıqla qarşılıqlı əlaqəsindən ibarətdir. Dinin sosioloji nəzəriyyəsini hazırlamaqda böyük xidmətləri olmuş görkəmli fransız sosioloqu Emil Dürkheym (1858-1917) hesab edir ki, "din müqəddəs varlıqla bağlı inamlar və ayinlərdən ibarət olan, inananları mənəvi birlik və ya dini qrupda birləşdirən, beləliklə, ictimai həmrəylik yaradan sistemdir". Bu tərifdə dinin mahiyyəti izah olunmaqla yanaşı, onun insanları mənəvi bağlarla birləşdirmə funksiyası da qeyd edilir. Beləliklə, Emil Dürkheym öz din tərifində dinin mahiyyəti ilə əlaqəli substantiv

[52] TDV İslam Ansiklopedisi. Günay Tümer. 1994, İstanbul, 9.cild, s. 345-349

və dinin ictimai rolunu əks etdirən funksional xüsusiyyətləri birləşdirmişdir.[53]

### "Əxlaq" sözünün lüğəti və terminoloji mənası

Bu söz Ərəb mənşəli xulq kelimәsi ilə eyni kökdəndir. Ərəb mənşəli bir sözdür. Əxlaq sözünün qədim mənaları çoxdur, "xalq adətlərinə əməl etmək" demək olmuşdur. Bizdə əxlaq yerinə qılıq, "нравственность" anlamında ərdəmlik, kişilik, insanlıq işlədilib (indi "alicənablıq" da işlədilir). Ərdəm (edrəm, erzəm formaları da mövcud olub) sözünün mənası rusca "высокое душевное качество" kimi açıqlanmışdır. [54]

Qərb dillərində əxlaq ingiliscə "morality", fransızca "morality", almanca "moralischer" kimi istifadə olunur. Hər üç söz əslən latın dilindəndir və bu söz yunanca Ethos (xarakter) sözündən qərb dillərinə Siseron tərəfindən tərcümə edilmişdir. Latın dilindən uyğunlaşdırılmışdır. Əxlaq, ərəbcə insanlar (yaradılış,yaradılmış sözü ilə eyni kökə malik xulq sözlünün cəmidir. Bu söz (xolq) sözün kökündən olub, xasiyyət, xarakter, din, yaradılış mənasını verir.Türkcəmizə əxlaq olaraq keçib.[55]

"Əxlaq"ın terminoloji açıqlamasında deyilir: Əxlaq ictimai şüur formalarından biri olaraq ictimai həyatın bütün sahələrində insanların davranışını tənzimləmək funksiyasını yerinə yetirən sosial institutdur:İngilis dilində "ethics" sözü əxlaq mənasını ifadə edir. Qərb fəlsəfə tarixinə nəzər salarkən, əxlaq və ya etikanın fəlsəfədə xüsusi bölmə kimi verildiyinə şahid oluruq. Aristotelin "Etika" əsəri deyilənləri təsdiqləyir. Sonralar müsəlman şərq fəlsəfəsində də əxlaq mövzusu fəlsəfənin ayrılmaz tərkib hissəsi kimi təqdim olunmuşdur. Hərçənd müasir dövrdə əxlaq ümumi fəlsəfədən təcrid ounmuş, əxlaq fəlsəfəsi adı ilə tədqiq olunmağa başlamışdır. Əxlaq fəlsəfəsi bir çox sahələrə ayrılmışdır. Etika-əxlaq sahəsindəki əsas təsnifatlardan biri onun normativ və deskriptiv növlərə bölünməsidir.[56]

Əxlaq ərəbcə "seciye, təbiət, xasiyyət" mənasını verən xolq sözünün cəmidir. Lüğətlərdə "xəlq" sözlərinin insanın fiziki quruluşu, xulq sözlərinin isə mənəvi quruluşu üçün işləndiyi qeyd olunur. İslam mənbələrində, xüsusən də hədislərdə xulq və əxlaq terminləri, ümumiyyətlə, yaxşı və pis vərdişləri, fəzilət və rəzalətləri ifadə etmək üçün işlədilir. Xüsusilə, yaxşı vərdişlər və fəzilətli davranışlar hüsnü' ul-xulq, məhasinü'l-əxlaq, məkarimü' ül-əxlaq, əl-əxləqu'l-həsənə, əl-əxləqu'l-həmidə, pis vərdişlər və pis əməllər rəzilə əxlaqdır. Yemək, içmək, söhbət etmək, səyahət etmək, ədəb-ərkan, nəzakətli və təqdirəlayiq davranış kimi gündəlik həyatın müxtəlif sahələrinə aid olan əxlaq, davranış və ədəb-ərkandan əlavə, bunlar haqqında nəsihət verən qısa və hikmətli sözlər və bu sözlərin yığıldığı əsərlər. ədab və ya ədəb də deyilir. İslam ədəbiyyatında ədab termini ilk dövrlərdən xüsusi davranış sahələri ilə bağlı işləndiyi halda, əxlaq, rəftar və davranışların qaynağı olan ruhani və ruhi qabiliyyətlər insanı təmin etmək üçün bilik və düşüncə sahəsini ifadə etmişdir. İnsanın mənəvi kamilliyi. Bu səbəbdən də İslamda İran mənşəli elmi və dini ədəbiyyat üstünlük təşkil etdiyi halda, sonradan onun əxlaqla əvəz olunması fikri həqiqəti əks etdirmir.[57]

### Din və əxlaq mövzusunun təhlili və mövzuya dair suallar

Fəlsəfi cəhətdən "din və əxlaq" arasında iki əsas əlaqə vardır. Onlardan biri əxlaqın və dinin mahiyyətdə nə olduğunu araşdırır. Digəri əxlaq və dinin sosial olaraq nə etdiyinə diqqət yetirir. Necə ki, ruh və cismi reallıq baxımından ayrı-ayrılıqda nəzərdən keçirmək mümkün olmadığı kimi, mahiyyət və funksiya və ya din və əxlaq da ayrı düşünülə bilməz. Bir şeyin mahiyyəti və funksiyası arasındakı fərq reallıq sferasında deyil; bu, şüurda mövcud olan bir fərqdir və bu, yalnız o şeyi təhlil etməyimizi asanlaşdırır.

Din və əxlaq arasındakı əlaqə fəlsəfənin Platondan bəri məşğul olduğu çox mühüm bir

[53] Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi Azərbaycan İlahiyyat İnstitutu. İzahlı dini terminlər lüğəti. Bakı,2020, s. 69-70

[54] Bəşir Əhmədov. Etimologiya lüğəti

[55] Hilmi Ziya Ülken düşüncesinde Din- Ahlak ilişkisi. İstanbul, 2017, s. 32

[56] Din və əxlaq. Mail Yaqubov. S. 82

[57] TDV İslam Ansiklopedisi. Mustafa Çağrıcı. İstanbul, 1989, 2.cild, s. 10-14

problem olmuşdur. *“Bir şey özlüyündə xeyirli olduğu üçün Allah tərəfindən əmr olunurmu, yoxsa yaxşılığı belə bir məsələdən asılı hesab edilməlidir?”* Sual həmişə həm fəlsəfəni, həm də ilahiyyatı məşğul edib. İslam düşüncə tarixində Əşərilik və Mötəzilə arasındakı qızğın mübahisələri xatırlamaq mövzunun əhəmiyyətini anlamaq üçün kifayətdir.[58]

Din cəmiyyətdəki müsbət əxlaqi dəyərlərin qoruyucudur. Əxlaq insanın davranışlarını yönləndirən qaydalar məcmusudur. Din və əxlaq tarix boyu çox yaxın münasibət içində və bir-biri ilə ayrılmaz şəkildə bağlantılı olmuşlar. Din və əxlaq qavramları bir-birinə bərabər olmasalar belə əxlaqi qaydaların dinin bir qisminə uyğun gəldiyini söyləmək olar.

Dində ən yüksək dəyər qaynağı Tanrıdır (Allah). Allahın göstərişləri, eyni zamanda əxlaqı da əhatə edər. Bilavasitə dini yöndən, bilvasitə dini yöndən əxlaqlı ola bilmək ancaq dini hökmlərə əməl etməklə mümkündür. Buna görə dindar insan əxlaqi tapşırıqlarını edərkən eyni zamanda savab qazandığını, əxlaq qaydalarına riayət etməliyik əsdiyi zaman isə günah etdiyini düşünür. Əxlaq insani dəyərlər və ya davranış yönündə yaxşı, gözəl və arzuedilən olanla maraqlanır. Din bunlarla yanaşı üstün insani dəyərlərlə maraqlanır.

İnsanlar arasındakı münasibətləri düzəldən dinin ortaya qoyduğu əxlaq insanın məqsədi kimi qarşıya qoyur,xoşbəxtliyini hədəfləyir. Çünki, ilahi çağırışın hədəfi gözəl əxlaqa sahib xoşbəxt insandır. İnsanların xoşbəxt olmaqları bu çağırışa əməl etməklə mümkündür. Din daim əxlaqi yaşayışı tövsiyə edər. Din insanın Allaha, özünə və başqalarına, hətta digər varlıqlara qarşı vəzifələrini bildirər. Zamanla əxlaqi və dini dəyərlər bütünləşə bilər.[59]

Din və əxlaq mövzularının qarşılıqlı, əlaqələrini araşdırmaq, onların hər birinin müstəqil və obyektiv izahını vermək və nəhayət, onlar arasındakı münasibətləri müəyyənləşdirmək nəinki din fəlsəfəsinin, hətta bir çox filosof və mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur.

a) Din olmadan əxlaq təməlləndirilə bilərmi?

Bizim anadan andan olduğumuz əxlaqımız, əxlaqi strukturumuz var. Əxlaqi sistemi anlayacaq bir strukturun olmasını (doğuşdan) ən yaxşı açıqlayan Allahın bizi bu şəkildə yaratmış olmasıdır. Ancaq Allah varsa, əxlaqi bir sistemin rasional bir təməlləri vardır. Yəni içimizdə bizim ancaq Allah varsa, məntiqi təməlləri olacaq bir sistem varsa, bunun ən yaxşı açıqlaması Allahın olmasıdır. Çünki, içimizi o şəkildə Allah yaratmışdır. Allahın əxlaqi əmrləri varsa, rasional (məntiqi) təməlləri olacaq. Bu da əxlaqi göstərişlərə uymamızdır.

İçimizdəki sistem ancaq Allah varsa, məntiqi təməlləri olacaq bir əxlaqi sistemə görə yaradılmışdır. Yəni içimizdəki sistem bizə əxlaqi bir struktura çatdırır. Əxlaqi strukturun isə ancaq rasional təməli olur. Hərçənd ki, Allaha istinad etmədən də əxlaqi sistem işləyər. Ona görə ateistlər də əxlaqlı ola bilər. Çünki, bu doğuşdan gələn bir özəlliklə əlaqəlidir. Amma Allaha istinad etmədən məntiqi təməl qurmaları mümkün deyil. O zaman da belə bir sual çıxır:

b) Allahdan gələn əxlaqi dəyərləri biz necə biləcəyik?

Əslində, bütün insanlara Allah ayrı-ayrı əxlaqi sistem vəhy etmədiyinə görə Allahdan gələn əxlaqi sistemi bilməmizin tək yolu əslində Allahın din göndərmiş olmasıdır. Qısası əxlaq dəlili bizə ana bətnindən sahib olduğumuz əxlaqi struktudan hərəkət Allahın varlığını anlamağa götürər. Eyni zamanda Allahın ancaq din göndərmək ilə o əxlaqi strukturun təməlləri olacağını göstərər. Çünki, Allahın nəyə “bəli” dediyini, nəyi əxlaqi sistem olaraq təsdiqləyib, təsdiqləmədiyini bizim özümüzün bilməsi mümkün deyil.

c) Əxlaqın təməli nədir?

Əxlaq insanların necə yaşaması gərəkliyini anladan, yaxşılıq, pislik ilə əlaqəli bir intizamdır. Nəyin yaxşı, nəyin pis olduğunu açıqlayır. İnsanın cavabdeh olduğu bir məsələdir. Buna görə də iradə sahibi olmaq lazımdır (azad iradə). Əks halda əxlaqdan cavabdeh olan bilməz. Təbiətə, heyvanlara və s. əxlaqi qaydalar var. [60] [61]

---

[58] TDV İslam Ansiklopedisi. Mehmet S. Aydın. 1994, İstanbul, 9.cild, s. 339-340

[59] Ahlak ve diğer bilimlerle ilişkisi. Nobel PPT, s.1-11

[60] Fıtrat delilleri. Prof. Dr. Caner Yaşlanan

[61] Allah, felsefe ve bilim. Prof. Dr. Caner Taslaman. S. 80-83

## Qərb fəlsəfəsində din və əxlaq münasibətlərinə yanaşmalar

İnsanların bir çoxu həyatımızın bütün sahələrini əhatə edən əxlaqi dəyərlərə inanırlar. Lakin sual olunur: həmin etik qaydaların mənşəyi nədir? Fəlsəfə fənninə ilk dəfə olaraq - Aristotel "Etika" adı vermişdir. Bununla o adətlərin, ənənələrin elmi yaranmasını nəzərdə tuturdu. Ancaq ona qədər artıq etika fəlsəfi düşünmənin tərkib hissinə çevirilmişdir. Bunun arxasında Sofisitlərin insan idrakının arxasında onların adət və ənənələri durması idi. Aristotel fikirləşirdi ki, insan praktikası əsaslı və nəzəri cəhətdən mövcud olan əksetdirməyə yol tapa bilər. Bu baximdan etika insanın materiya ilə davranışı, bu materiyanın fəlsəfi üsullarla işləyən normativlər əsasında qiymətləndirilmıəsi və bunun əsasında əldə edilən biliklər əsasında praktikada tətbiqini ifadə edir. Məsələn, nə üçün müəllimə hörmətlə yanaşmağı zəruri hesab edirik? Bu və buna oxşar sualları ilk addımda belə cavablandıra bilərik: çünki valideynlərimiz, din xadimlərimiz və müəllimlərimiz bizə əxlaq çərçivəsində davranmağı tövsiyə etmişlər.Bəs bizim doğru hesab etdiyimiz əxlaq qanunlarının son məqsədi nədir? Bizi düzgün davranışa dəvət edən valideynlər, müəllimlər və ya din xadimləri dəvətlərini necə əsaslandırırlar? Etikada təsbit olunan davranış qaydaları sırf əql qüvvəsinin məhsuludurmu? Yoxsa bu normaları Allah müəyyənləşdirib? Bəlkə onların başqa amilləri var? Bir sözlə, əxlaq dindən ayrıdırmı? Qərb və Şərq fəlsəfəsində problemin həlli üçün müxtəlif yollar təklif olunur. Biz öncə Qərb təfəkkür tarixində məsələyə münasibəti araşdıracaq, sonra müsəlman Şərqində problemin həll yolunu nəzərdən keçirəcəyik.

Biz bu bölmədə Qərb dünyasında din və əxlaq mövzusu ilə bağlı təməl nəzəriyyələr ilə tanış olacağıq. Bu nəzəriyyələr aşağıdakılardır:

1. Əxlaqın müstəqilliyi və dinin əxlaqdan asılılığı nəzəriyyəsi.
2. Əxlaq və din müstəqil həqiqətlər nəzəriyyəsi kimi.
3. Əxlaq və dinin ziddiyyət nəzəriyyəsi.
4. Əxlaqın dindən asılılığı nəzəriyyəsi.
5. Əxlaq ilə dinin eyniliyi nəzəriyyəsi.

## Əxlaqın müstəqilliyi və dinin əxlaqdan asılılığı nəzəriyyəsi

Antik fəlsəfənin görkəmli nümayəndələrindən olan Platon "Osiferon" əsərində Sokratın Osiferon adlı şəxslə dialoqunu şərh edir. Həmin dialoqda Osiferon deyir ki, təkcə Allahın fərman verdiyi işlər yaxşı iş sayıla bilər. Bu vaxt Sokrat ondan soruşur: "Həmin işin yaxşı olmasının səbəbi Allahın əmridir, yoxsa Allah həmin işin yaxşılığını nəzərə alıb onun həyata keçməsini tələb edib?" Osiferon cavab verir: "Həmin iş yaxşı olduğu üçün Allah onun yerinə yetirilməsi haqda fərman verib". Sokrat bu cavabdan belə nəticə çıxarır: "Deməli, əxlaq ilahi fərmandan asılı deyil və Allah özü də əxlaq normalarına uyğun əməl edir".

Qeyd etmək lazımdır ki, həmin risalədə din və ədalət mövzusu müzakirə olunur. Sokrat ədalətin daha geniş anlam olduğunu və dinin ədalətin bir hissəsi olduğunu vurğulayır. Beləliklə, uyğun sualın ilk cavabı antik fəlsəfədə verilmişdir. Bildirilir ki, əxlaq dindən ayrıdır, amma din əxlaqdan asılıdır. Çünki, Allahın özü də öz əmrini əxlaq qanunları ilə uzlaşdırır.[62]

## Əxlaq və din müstəqil həqiqətlər nəzəriyyəsi kimi

İ.Kant din və əxlaqı bir-birindən asılı olmayan müstəqil həqiqətlər kimi təqdim etmişdir. XVIII əsrdə yeni fəlsəfi sistemin banisi Kant belə hesab edirdi ki, nəzəri baxımdan əxlaq meyarlarının və qanunlarının müəyyənləşdirilməsində əql tam müstəqildir. Praktik əql sahəsinə gəldikdə isə hətta əxlaq vasitəsi ilə Allahın varlığını sübut etmək olar. Daha dəqiq desək, Kant Allahın varlığının sübutunu sırf nəzəri üsullarla yox, praktiki əql, yəni əxlaq vasitəsi ilə mümkün sayır. Yəni insanlar əxlaq normalarına müvafiq yaşayarlarsa, bu vaxt onlar ilahi sevgi və məhəbbət duyğusunu hiss edəcəklər.

İmmanuel Kantın etikası, yaxud əqlin əməli tətbiqi təlimi "Prakti zəkanın tənqidi" və qısa şəkildə desək, "Proleqomenlər" əsərlərində nəzərdən keçirilmişdir. Kantın etikası tarixi- fəlsəfi əhəmiyyətə malikdir ki, burada da "qəti

[62] Mail Yaqubov. Din və əxlaq. S. 83

imperativ" mühüm yer tutur. Məsələ burasındadır ki, İ. Kantı əxlaqa utilitar yanaşma etmirdi. Çünki, burada əxlaqın məqsədləri onun özündən kənarda hesab olunur. O, tam təcrid olunmuş əxlaq metafizikasını əldə etməyə çalışırdı. Özü də bu əxlaq nə teologiya, nə də başqa bir şeylə şərtlənmir. Kant hesab edirdi ki, bütün əxlaqi anlayışlar öz yeri və mənşəyinə görə əqldə tam aprioridir . Əxlaqi dəyərlər insanın borc hissindən çıxış edərək fəaliyyət göstərdiyi zaman mövcud olur. Həm də borcu tələb etdiyi səviyyədə olan fəaliyyət kifayət deyildir. Tacirin düzlüyü əgər onun marağı ilə şərtlənirsə o, yaxşı hesab oluna bilməz. Əxlaqın mahiyyəti qanun anlayışından çıxarılmalıdır.

İmmanuel Kantın əxlaqı iki termin üzərində qurulmuşdur:

1) Hipotetik, imperativ. Buna görə bir insan edəcəyi işin bir məqsəd üçün olması lazımdır.

2) Kateqorik imperativ. Buna görə isə etdiyimiz işlər üçün bir məqsəd və ya çıxar olmamalıdır. Çünki, hərəkətlərimizin məqsəd və ya çıxara görə deyil, bütün insanlar üçün mütləq olan "vəzifəyə" görə olması lazımdır.

İ.Kant nəyin əxlaqi olub olmadığını "Əxlaq metafizikasının təməlləndirilməsi" kitabında ortaya qoymuşdur.

Kant özünü dindar va xristian hesab edir. Alimin fikrincə, dinin əxlaqdan substansion fərqi yoxdur. Demək olar ki, din elə həmin əxlaqdır ki, xüsusi baxışla nəzərdə tutulmuşdur. Kant əxlaqın dinin özü olması fikrində israr edir. Dinlə fərqliliyi ilə müxaliflik edir. Əxlaqın dinin özü olmasının şərt va mənası ondan ibarətdir ki, fərd özündən başqa mənbə və müraciət edilən amili olmamalı, daxili ağıl iradəsinə əsasən əmr qəbul etməməlidir. Buna görə Kantın "Din yalnız ağılın çərçivəsində" adlı kitabında ilk sözü bundan ibarətdir: Əxlaq insandan qaynaqlanan təsəvvür olduğuna görə muxtardır. Muxtar olduğuna görə, özünü mütləq qanunlarda ağlın hökmünə borclu edir. Öz vəzifəsi ilə tanış olmaq üçün özündən başqa kənarda olan varlığın təsəvvürünə ehtiyacı yoxdur. Həmçinin öz vəzifasinə əməl etməkdən ötrü özündən başqa axlaqi qanunlarda məqsədə ehtiyacı yoxdur. Buna görə əxlaqın öz-özlüyündə heç zaman dinə ehtiyacı yoxdur və həmin xalis ağıl ona kifayət edir". Göründüyü kimi, Kant din və imanı əxlaqın əsası deyil, onun meyvəsi hesab edir. Dindarlığın gözəlliyini həmin əxlaqda görür. Onun Allahdan təsəvvürü buna görə digər dinlərin Allah haqqında tasəvvürlərindən ümumi va əsaslı şəkildə fərqlənir.

İ. Kant Allah barəsində xarici təsəvvürü insan sifətlərinin və nəfsinin Allahla deduksiyası (müqayisəsi) deməkdir. Allahın qüdrətli, rəhbər, bağışlayan və d. olmasını düşünmək Kantın əxlaqı və dini ilə ziddiyyət təşkil edir. Buna görə də Kantin dindarlığında vəhyin, dinin müdaxiləsinin və mahiyyətinin elə də önəmi yoxdur. Kant təbii dinə, yəni insan ağlı ilə dərk olunan dinə vəhy və təbiətdən kənar qüvvələr tərəfindən nazil olan dindən daha çox əhəmiyyət verir.

İ. Kant əbədi günah, Allahın İsada təcəssümü, İsanın fəda olmasını va digər anlayışları əxlaqi va insanın təbii idrakına uyğun təfsir edir. Kantin təsəvvüründə təbii ağla uyğun gəlməyən möcüzəyə yer yoxdur. Onun inancına görə, ürəkdə əxlaqi qanunun varlığı ilə Allahın təsdiqi üçün möcüzəyə ehtiyac qalmır. Həmçinin onun nəzərində dini şüarların, ibadətlər və müxtəlif duaların əhəmiyyəti yoxdur. Buna görə onun həyatını qələmə alan dostu R.B. Yaxman barəsində belə yazır:

"Ya dərindən dindar idi ki, hər cür dini mərasim va zahiri adətlərdən kənar gəzirdi, ömrünün sonunda da heç vaxt kilsəyə ibadət üçün getmədi".

Kant müxtəlif saylı dinlərə inanmır, dinləri zati cəhətdən bir hesab edir. Müxtəlif saylı məzhəblərin müxtəlif adət və şüalarını qeyri-zati və qeyri-dini hesab edir. Bu, dinə zidd olmaq demək deyil.

Kant din və dindarlıq barəsində təsəvvürünü belə ifadə etmişdi: "Mən imana yol açmaq üçün bu mövzuda idrakı kənara qoymağı lazım bildim".

Bu ifadə ilə onun məqsədi bundan ibarətdir ki, şüuru fenomen aləmi ilə məhdudlaşdırmaq nəzəri ağlı yüksək dəyanat məqsədinə, yəni Allah, nəfs va ixtiyara çatmaqdan çəkindirməklə bu həqiqətlərə iman yolunu praktik ağıl və əxlaqi vicdanın zəmanəti ilə çatmaq olar.

Digər mühüm mübahisəli məsələlərdən biri də Kantin nəzəri ağıl anlayışları ilə metafizikani isbat va ona daxil olmağın qeyri-mümkün olduğuna inanması ilə xüsusi mənada, ilahiyyata va teologiya elminə xidmət etməsidir. Bəziləri bunu onun teologiya elminə xidməti, bəziləri isə teologiya elminə vurulan ən ağır zərbə hesab edir. Onun özü bu barədə belə yazır: "Amma bu xidməti, yəni fəlsəfənin teologiyaya tutduğu iradları əhəmiyyətsiz hesab etmək olmaz. Çünki, teologiyanı qəti qarar verənlərdən azad etmişəm.[63]

Kant din və əxlaqı bir-birindən asılı olmayan müstəqil həqiqətlər kimi təqdim etrmişdir. XVIII əsrdə yeni fəlsəfi sistemin banisi Kant belə hesab edirdi ki, nəzəri baxımdan əxlaq meyarlarının və qanunlarının müəyyənləşdirilməsində əql tam müstəqildir. Praktik əql sahəsinə gəldikdə isə hətta əxlaq vasitəsi ilə Allahın varlığını sübut etmək olar. Daha dəqiq desək, Kant Allahın varlığının sübutunu göstərir.

**Əxlaq və dinin ziddiyyət nəzəriyyəsi**

Soren Kyerkeqorun fikrincə, varlığın mənəvi mərhələsində universalın hökmranlığı var. Lakin Kyerkeqor üçün universalın gücü hər şeyi izah etmək üçün kifayət deyil, həmişə və hər kəs üçündür. Etibarlı əxlaqi prinsiplər insan həyatının bütün sahələrinə hakim ola bilməz. Hər şey kimi, o da həddi aşıb keçə bilməyəcəyi həddə bağlıdır. Bu sərhəddi keçəndə ümumbəşəriyə tabe olan fərd universaldan daha yüksək olur və bu, fərdin cəmiyyəti və onun varlığıdır. Onun maraqlarından daha dəyərli olduğu paradoksu yaradır. Kierkegaard, dindar olaraq xarakterizə etdiyi bu mərhələnin ən böyük nümayəndəsi olaraq gördüyü İbrahim oğlu İshaqın qurban vermə hekayəsi, onun qəbul etdiyi kimi iman və ağıl arasındakı əlaqə haqqında düşüncələrini ortaya qoyur. Din anlayışının Hegelin rasional və vahid sisteminə sığmadığını göstərməkdir.

S. Kierkegaard üçün İbrahimin gücü və zəifliyi, axmaqlığı və müdrikliyi, riskli bir insandır. Ümid, nifrət və məhəbbəti özündə cəmləşdirərək vəsf edilən paradoksu ifadə edir.[64] O, ucadır, çünki Allahı sevən və Allah üçün səy göstərən hər kəsdən üstün olar. Allaha iman edən İbrahimə yer üzünün bütün xalqlarının onun nəsli ilə təqdis ediləcəyi vədi verilir. Baxmayaraq ki, o, uzun illər uşaq sahibi ola bilmir. Amma o, yenə də həm Saranın, həm də özününkü idi. Yaşının çox olmasına baxmayaraq o, Allahın vədini yerinə yetirəcəyinə inanmağa davam edir. Allah ona o, İshaqı bağışladıqdan sonra ömrü boyu doğulmasını gözlədiyi yeganə oğlunu İbrahimə verdi. Onun üçün qurban verməsini xahiş edir. İbrahim oğlunu götürüb Moriya dağına yola düşür və üç günlük məzuniyyətə çıxır. O, səfərdən sonra oraya çatanda, oğlunu qurban kəsmək üçün bıçağı çəkdiyi kimi, Allah bir keçi göndərir və oğlunun yerinə keçini qurban kəsməsini xahiş edir. Beləliklə, İbrahim tam sədaqətli idi. Təslim olmaq məcburiyyətində olduğu Allahın sözünə əməl etməklə Ona olan sevgisini və imanını sübut edir.

S.Kierkegaard İbrahim hekayəsini müzakirə edərkən, İbrahimin İshaqı qurban vermək cəhdi uğurlu olur.O, Moriah dağına üç günlük səyahətinin necə keçdiyini düşünür. Çünki, dindarın konformizminə qarşı olan Kierkegardın fikrincə, bu hekayənin yekun hissəsinə diqqət yetirir.İmanı isbat etmək üçün həyata keçiriləcək əmələ hazırlıq prosesi o əməldən daha vacibdir.

S.Kierkegaard İbrahimin hekayəsi ilə bir neçə çərçivəsində məşğul olur. Bunlardan biri, problem, əxlaqın daha yüksək telos üçün dayandırıla biləcəyidir. Digəri, İbrahimin qarşısında mütləq bir vəzifənin olub-olmamasıdır.Söhbət ondan gedir ki, onun üzərinə düşən vəzifəni hamıdan gizlətməsi mənəvi cəhətdən əsaslandırılıbmı? bu problemlərin həlli yolları ayrı başlıqlar altında müzakirə olunacaq.[65]

Qərb fəlsəfə tarixində əxlaq və dinin ziddiyyət nəzəriyyəsini irəli sürən digər bir filosof ictimai tənqidçi, sosialist filosof Karl Marksdır. O dini cəmiyyətin hakim dairələrinin müdafiəçisi kimi təqdim edir. Bu səbəbdən də din

[63] İlahiyyat jurnalı. F.e.d. Dos. Ələddin Məlikov. İmmanuel Kantın fəlsəfəsində dinə baxış

[64] S.Kierkegaard, Korku ve titreme, 58-59

[65] Din felsefe araştırmaları. Zeynep Baktemur, Rahim Acar. Kierkegaard' da Ahlakın Özünelliği problemi

yalnız varlı təbəqəni himayə etdiyi üçün əxlaqa zidd sayılır.[66]

Karl Marks, əsasən dinlə bağlı tənqidi fikirləri bunu ilk dəfə 1843-cü ildə cəmi 25 yaşında yazdığı "Hegelin hüquq fəlsəfəsinin tənqidi" adlı əsərinin ön sözündə izah etmişdir. Dinin marksist tənqidində insan şüurlu və müstəqil düşünən fərddən daha çox sosial kontekstdəki varlıqdır. Lüdviq Andreas von Feyerbax (1804-1872) kimi Marks da Tanrının insanların xəyali əksi olduğunu düşünürdü. Marks; O, "Din insanın yaratdığı xəyali gerçəklikdir" deyərkən belə müdafiə edirdi: "Çünki, insan varlığının real gerçəkliyi yoxdur. Bu mənada dinə qarşı müharibə mənəvi ləzzəti din olan dünyaya qarşı müharibədir." Marks dinin tənqidinin əsasını aşağıdakı cümlələrlə ifadə etmişdir:

Marks dinin "qeyri-dini tənqidi"ni etdiyi halda, dinsiz bir insanın tənqidi deyil, ondan asılı olmayaraq, dinin ümumi tənqidi kimi qiymətləndirilməlidir. Bu din insan əli ilə formalaşdığından, o zaman insan əli ilə dəyişdirilə bilməlidir. Lakin Marksın dünyagörüşündə dəyişiklik dini ortadan qaldıracaq bir mühit yaratmaq üçün istifadə edilmişdir. Ona görə də onun ilahi gücünə də əhəmiyyət verilməməlidir.

Başqa sözlə, insanın yaratdığı Allahın hökmranlığı və buna uyğun olaraq bütün dini hökmlər dünyadan ləğv edilməlidir. Onlar tövhid əqidəsinə qarşı olsalar da xristianlıqda olduğu kimi tövhid dinlərində də bu və ya digər şəkildə Allah inancı həmişə mövcud olmuşdur. Allahın varlığının inkarı ilə onun dünyəvi və axirət mükafatları və səlahiyyətləri əlindən alınır. Beləliklə, insan müstəqil olur, dindən və Allahdan azad olur. İlahi hökmlərdən azad olmaq həm də ənənəvi dini anlayışdan, inancdan, adət və mərasimlərdən qurtulmaq deməkdir.

Şübhəsiz, Kyerkeqor və Marksın yeni dövr fəlsəfi fikrinin nümayəndələri olaraq din haqqında düşüncələri orta əsrlər boyu Avropada təbliğ və tətbiq edilmiş, xristianlıqdan qaynaqlanmışdır. Biz isə İslam prinsiplərini əsas götürərək bu dində əxlaqa verilən yüksək dəyəri nəzərə alır və dinin əxlaqa zidd olması qənaətini qətiyyətlə rədd edirik.

[66] Mirça İlyade, " Fərhəng və din " , s.2

**Əxlaqın dindən asılılığı nəzəriyyəsi**

XX əsrin müasir fəlsəfi tədqiqatları din və əxlaq münasibətləri ilə bağlı maraqlı məqamlara toxunub, problemin fəlsəfə müstəvisində həllinə cəhd göstərmişdir. Həmin tətqiqatçılardan olan Robert Adams (1937) "normativ əxlaqda insanlara tövsiyə edilən normaların mənşəyi nədir" sualına belə cavab verir: "Etik həqiqətlərin mənşəyi ilahi iradədir. Məsələn, biz nə üçün başqaları ilə mehriban davranmalıyıq? Çünki, Allah bizə belə əmr etmişdir. Nə üçün oğurluq etməməliyik? Ona görə ki, Allah bu işi qadağan etmişdir. Kimsəsizlərə əl tutmağın zərurəti nə ilə bağlıdır? Çünki, Allah bizə zəiflərə kömək göstərməyi tövsiyə etmişdir.

Lakin Adams burada belə bir məqamı da qeyd edir. Onun fikrincə, biz Allahın bütün əmrlərinə tabe olmaq məcburiyyətində deyilik. Başqa sözlə, nəzəri cəhətdən Allah bizə başqasını haqsız qətlə yetirmək əmri verərsə, bu, əxlaqi dəyər sayılmaz. Deməli, Adams ilahi iradə və fərmanın əxlaqın mənşəyi hesab olunmasını mütləq yox, şərtli qəbul edir. Biz yalnız elə bir şəraitdə Allahın əmrinə tabe olmalıyıq ki, Allahın bizə məhəbbət hissi ilə yanaşmasını öncədən bilək. Lakin bu müddəa təcrübədə təsdiqlənmir. Yəni Adamsın qənaətincə, bizim sitayiş etdiyimiz Allah daimi olaraq insanlara yüksək məhəbbət və mehribanlıq duyğusu ilə yanaşır. Deməli, biz Allah tərəfindən olan bütün əmrləri əxlaq norması kimi qəbul edə bilərik.

Robert Adamsın problemin həllindəki təklifi müasir din filosofları tərəfindən qənaətbəxş hesab edilmir. Çünki, yeni bir sual yaranır: nə üçün ilahi fərmandan qaynaqlanan əxlaq qanunları mötəbər və məqbul sayılır? Nəyə görə insanlar Allahın əmrinə tabe olmalıdırlar və buna əsas nədir?

Çağdaş din filosoflarından olan Mek İntayer (1929) problemi bu formada təqdim edir: *"Rasional düşüncə hansı şəraitdə Allahın əxlaq haqda əmrlərini mötəbər hesab etməlidir? İnsanlar Allaha mütləq xeyirli varlıq kimi etiqad etdiklərindən Onun tövsiyələrini məqbul saya bilərlər. Yəni insan zəkası bununla razılaşır ki, Allah mütləq xeyirli və xeyirxah bir varlıqdır. Deməli, Onun insanlara verdiyi öyüd-nəsihətlər, bu əsasla insanlara müəyyən*

*işlərə əmr etməsi və onları bəzi işlərdən çəkindirməsi tam qəbul ediləsidir".*

Lakin yenə sual olunur: dindarlar hansı əsasla Allahı mütləq xeyirli varlıq hesab edirlər? Diqqət edin, bu sual sözügedən problemin üçüncü mərhələsidir. Bu isə müasir din fəlsəfəsinin din və əxlaq mövzusunda geniş araşdırmalarının göstəricisidir. Kay Nielsen (1925) növbəti suala cavab verməyə çalışır: *"Dindarlar deyə bilərlər: Allahı ona görə mütləq xeyirxah həqiqət kimi qəbul edirik ki, bu, müəyyən dəlillərlə sübuta yetib. Məsələn, Allah ona görə xeyirlidir ki, onların sevdiyi bir insana şəfa verib və ya çətin məqamlarda onlara kömək edib".* Nielsen bu cavabı rədd edir. Çünki, biz bir şəxsin müəyyən xususiyyətə malik olmasını o zaman təsdiq edə bilərik ki, öncədən həmin xüsusiyyətin mahiyyətini dərk etmiş olaq. Misal üçün, yeni tanış olduğumuz insanın dostluğunu yalnız dostluğun öncədən nə olduğunu bildiyimiz halda vurğulaya bilərik. Deməli, biz öncədən xeyirli və yaxşı işləri müəyyən meyarla tanıdıqdan sonra Allahı xeyirli varlıq adlandıra bilərik. Nəticədə ilahi iradə əxlaqa meyar sayılmır.

Nielsen burada digər bir yol təklif edir. O deyir: "Dindarlar iddia edə bilərlər ki, "xeyirxahlıq" Allahın zəruri və ayrılmaz xüsusiyyətlərindəndir. Yəni dindarların sitayiş etdiyi Allah mütləq şəkildə həmin xüsusiyyətə malikdir". Lakin Nielsen bu cavabı da qəbul etmir. O belə hesab edir ki, bizim belə bir varlığın tövsiyələrini tam məqbul saymağa hec bir əsasımız yoxdur. Nəticədə dindarlar qəbul etməlidirlər ki, xeyir işlərin mənşəyi Allah yox, digər etik meyarlardır və onların sitayiş etdiyi Allahın işlərinin düzgünlüyü onların həmin əxlaq meyarları ilə uzlaşmasından asılıdır. Beləliklə, Nielsen də sekulyar əxlaqa inananların sırasına qoşulur.[67]

İlahi əmr etikası, Sokratın fəlsəfi müzakirə kimi irəli sürdüyü din və əxlaq arasındakı əlaqənin yaratdığı dilemma ilə məşğul olmalıdır. Bu dilemma ondan ibarətdir ki, nəyin yaxşı və ya əxlaqi olması Allahın əmrləri ilə, yoxsa insan şüuruna xas olan əxlaqın dəyərli mühakimələri ilə müəyyən edilir. Dini rəvayətlərdəki bu cür dilemmaların ən parlaq nümunəsi Hz. İbrahimə oğlunu qurban kəsməyi əmr edən ilahi əmrdir. Buna görə də Hz. İbrahim oğlunu qətlə yetirməklə əxlaqi cəhətdən yanlış bir hərəkət edəcək, ya da Allahın əmrinə qarşı çıxmaqla dini günahkar olacaq. Bu nümunə rasional əxlaqi teologiyanın fəlsəfi mümkünlüyünə inanan teist əxlaq filosofları üçün olduqca cəlbedicidir. Burada müasir əxlaq filosofu Robert M. Adamsın "düzəldilmiş ilahi əmr nəzəriyyəsi" insanın və Tanrının əxlaqi rasionallığına istinad və düzəlişləri ilə bu dilemmaya çıxış yolu təklif etməyə çalışır. Bu iş Adamsın həllinin təhlili, uğuru və nəticələri ilə məşğul olur.[68]

**Əxlaq ilə dinin eyniliyi nəzəriyyəsi**

XX əsrdə din fəlsəfəsində geniş yer almış bəhslərdən biri dinin funksional təhlili məsələsidir. Onlar Vitgenşteynin (1889-1951) "dilin müxtəlif aspektlərdən dərki üçün onun funksiyalarını təhlil et" tövsiyəsi əsasında dinin dilini təhlil edərək onun müxtəlif funksiyalarını aşkar edirlər. Həmin filosoflardan olan müasir ingilis filosofu Brait Vaite (1900) belə hesab edirdi ki, dini müddəaların funksiyası əxlaq qanunları ilə eynidir. Onun fikrincə, dində tətbiq olunan dilin xüsusiyyətlərindən biri əxlaq normaları ilə bəzənmiş həyat barədə müxtəlif hekayələri şərh etməsidir. Din insanları həmin hekayələrdə göstərilən insanlar tək əxlaqlı olmağa dəvət edir. Deməli, Vaitenin qənaətinə görə, dinin dili əxlaq və etika dilidir. Nəticə etibarilə dinin mahiyyəti əxlaqla eyniləşir.

Qeyd etmək lazımdır ki, həmin filosofların səhvini pozitivistlərin din haqqındakı yanlış düşüncələri ilə müqayisə etmək olar. Çünki, müasir fəlsəfi cərəyanlardan biri olan pozitivizmdə konkret və təcrübi elmləri həqiqi biliyin yeganə mənbəyi hesab edildiyi üçün dinə də təcrübi və konkret reallıq kimi baxılır. Nəticədə din inkar edilir. Müasir din filosofu Donald Hudson həm analitik fəlsəfə nümayəndələrinin dinlə əxlaqı eyniləşdirməsi barədə görüşlərini, həm də pozitivistlərin dini təcrübi bilik sahəsi kimi araşdırmalarını rədd edir və deyir:

[67] Maykl Peterson. "əql və etiqade dini". s.436

[68] Robert Adams'ın İlahi Əmr Teorisinin Hz. İbrahim'in Hikayesi Üzerinde Analizi. Elif Nur Erkan Balcı. 2022, 9.cilt, s.1-39

"Dinin özünəməxsus xüsusiyyəti və funksiyası vardır. Filosofun vəzifəsi isə dinin cəmiyyətdəki rolunu müəyyənləşdirməkdir".

Din və əxlaqı eyniləşdirməyə çalışan digər bir şəxs alman materialist filosofu Lüdviq Feyerbaxdır. XIX əsrdə materialist görüşləri ilə tanınan Feyerbax dini və əxlaqı insanların emosiyalarına əsaslanan məfhum kimi qiymətləndirməyə cəhd edir.

Din haqqında məlumatlı insanlara aydındır ki, din əxlaqdan fərqli olaraq insanın ilahi varlıq və digər fövqəltəbii həqiqətlərlə bağlılıq hisslərinə cavab verir. Əxlaq isə yalnız insanlarlın bir-biri ilə davranış qaydalarına aiddir.

## Nəticə

Məqalədə din və əxlaq sözlərinin etimoloji mənasından əlavə dinin müsbət əxlaqi dəyərləri qoruyan, əxlaqın isə insan davranışlarını yönləndirən funksiyalara malik olduqları aydın oldu. Qərb fəlsəfə tarixində din və əxlaq mövzusundakı təməl nəzəriyyələr gözdən keçirilmiş və təfsilatlı məlumat verilmişdir. Sokratın fikrincə, əxlaq ilahi fərmandan asılı deyil, Allah özü də əxlaq normalarına uyğun əməl edir. İmmanuel Kant din və əxlaqı bir-birindən asılı olmayan müstəqil həqiqətlər kimi təqdim edib. Soren Kyerkeqor etibarlı əxlaqi prinsiplərin insan həyatının bütün sahələrinə hakim ola bilmədiyini deyir. Robert Adams etik həqiqətlərin mənşəyini ilahi iradədə görmüşdü. Sonda isə əxlaq ilə dinin eyniliyini müdafiə edənlərin nəzəriyyəsi izah edilmişdir.

## Ədəbiyyat


1. TDV İslam Ansiklopedisi. Günay Tümer. 1994, İstanbul, 9.cild, s. 345-349
2. Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu. İzahlı dini terminlər lüğəti. Bakı, 2020, s. 69-70
3. Bəşir Əhmədov. Etimologiya lüğəti, Altun kitab nəşriyyatı, Bakı, 288 səh.
4. Hilmi Ziya Ülken düşüncesinde Din- Ahlak ilişkisi. İstanbul, 2017, s. 32
5. Mail Yaqubov. Din və əxlaq. s. 82
6. TDV İslam Ansiklopedisi. Mehmet S. Aydın. 1994, İstanbul, 9.cild, s. 339-340
7. TDV İslam Ansiklopedisi. Mustafa Çağrıcı. İstanbul, 1989, 2.cild, s. 10-14
8. Ahlak ve diğer bilimlerle ilişkisi. Nobel PPT, s.1-11
9. Caner Yaşlanan. Fıtrat delilleri.
10. Caner Taslaman. Allah, felsefe ve bilim. S. 80-83
11. Ələddin Məlikov. İmmanuel Kantın fəlsəfəsində dinə baxış // İlahiyyat jurnalı, 2019, №1, səh.36-40 (http://dx.doi.org/10.13140/RG.2.2.30263.06565)
12. S.Kierkegaard, Korku ve titreme, 58-59
13. Zeynep Baktemur, Rahim Acar. Din felsefe araştırmaları. Kierkegaard' da Ahlakın Özünelliği problemi
14. Mirça İlyade, " Fərhəng və din " , s.2
15. Peterson Maykl. "Əql və etiqade dini". S. 436
16. Robert Adams'ın İlahi Əmr Teorisinin Hz. İbrahim'in Hikayesi Üzerinde Analizi. Elif Nur Erkan Balcı. 2022, 9.cilt, s. 1-39


**Rəyçi:** **f.ü.f.d., dos. Mustafayev Radif**
**Göndərilib: 20.04.2023** **Qəbul edilib: 02.05.2023**